# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

15 fevral 2018-ci il
Cümə axşamı

№ 6(3371)

Qiymәti 40 qәpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# BAKIDA YENİ AZƏRBAYCAN PARTİYASININ VI QURULTAYI KEÇİRİLİB

Fevralın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) VI qurultayı keçirilib.

YAP-ın 700 mindən çox üzvünü təmsil edən nümayəndələrin iştirak etdikləri qurultayda partiyanın sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləyib.

Dövlətimizin başçısı YAP-ın yaranmasından və keçdiyi yoldan, partiyanın banisi ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən, təşkilatın ölkəmizin və cəmiyyətimizin həyatındakı rolundan bəhs edib. ***Qeyd olunub ki, son illər aparılan siyasət özünü tam doğruldub, Azərbaycanda sabitlik mövcuddur. Sabitlik hər bir inkişafın əsas şərtidir***. Son 5-6 il ərzində dünyanın müxtəlif yerlərində, regionumuzda çox ciddi, narahatedici proseslər gedir. Qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, ölkələrin bir-birinin işinə kobudcasına qarışması, hərbi müdaxilələr - bütün bunlar bizim gözümüzün önündə baş verən məsələlərdir. ***Bütün bəşəriyyət əyani şəkildə görür ki, sabitlik pozulduqda heç bir inkişafdan söhbət gedə bilməz. Bu, xalqlara, ölkələrə böyük bəlalar, faciələr gətirir.*** Dağılmış vəziyyətdə olan və daxili inteqrasiyanı tamamilə itirən ölkələrin gələcək taleyi böyük sual altındadır. Həyat və yaxın tarixin mənzərəsi göstərir ki, sabitlik əsas amildir və sabitlik necə təmin edilməlidir? Ancaq düzgün siyasətlə. O siyasət ki, onun mərkəzində xalq dayanır, ölkə vətəndaşı dayanır.




Cənab Prezident bildirib ki, biz məhz bu siyasəti aparırıq. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır. ***Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir, bu gün var və gündən-günə güclənir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və o ölkədir ki, xalq-iqtidar birliyi onun uğurlu inkişafını müəyyən edir.*** Bizim siyasətimiz ictimaiyyət tərəfindən dəstəklənir və ictimaiyyət də görür ki, bizim siyasətimiz real, konkret nəticələrə gətirib çıxarır.

***Ölkəmizdə ictimai asayiş qorunur, kriminogen durum çox müsbətdir, Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Bunu Azərbaycan vətəndaşları yaxşı bilirlər, ölkəmizə gələn çoxsaylı turistlər görürlər. Təhlükəsizlik və sabitlik bizi fərqləndirən müsbət amillərdir.***

Ölkəmizin rəhbəri daha sonra deyib:

-Ölkəmizdə, eyni zamanda, bütün azadlıqlar təmin edilir və edilməlidir, bu da bizim siyasətimizdir. Gələcək illərdə də demokratik inkişafla bağlı yeni addımlar atılacaqdır, siyasi islahatlar davam etdiriləcəkdir. Son illər ərzində bu istiqamətdə gözəl nəticələr əldə edilib və bu, daimi prosesdir. Biz çalışmalıyıq ki, dünyanın demokratik baxımdan ən inkişaf etmiş ölkələrinin standartlarına yaxınlaşaq və bunu edəcəyik. Bu gün də vəziyyət çox yaxşıdır, müsbətdir. ***Bütün azadlıqlar - söz, mətbuat, sərbəst toplaşma azadlığı tam təmin edilir və ediləcəkdir.*** Bu, bizim prinsipial siyasətimizdir. Mən tam əminəm ki, əgər biz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirmək istəyiriksə, - biz bunu istəyirik, - mütləq siyasi və iqtisadi islahatlar paralel xətlə davam etdirilməlidir.

***Azərbaycanda vicdan azadlığı tam təmin edilir və ediləcəkdir.*** Bundan sonra da Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkə kimi uğurla inkişaf edəcək. Bundan sonra da ölkəmizdə bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayacaq. Bu, bizim böyük sərvətimizdir. Bu, ölkəmizin uğurlu inkişafı üçün əsas şərtlərdən biridir, vətəndaş həmrəyliyi, vətəndaş sülhü üçün əsas şərtdir.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışının sonunda bir məqamı xüsusilə vurğulayıb:

***-Bizim əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir. Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi ulu öndər Heydər Əliyevdir. Məhz onun hakimiyyətə gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu.***

1993-cü ilə qədər bizim müstəqilliyimiz şərti və yarımçıq xarakter daşıyırdı. Xarici ölkələr, onların Azərbaycandakı nümayəndələri burada hakimiyyətə göstərişlər, təlimatlar verirdi. Əlbəttə ki, bu, tariximizin bəlkə də ən biabırçı səhifələrindən biridir. ***O ağır vəziyyətdə məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi, - o vaxt bizim hələ ordumuz, iqtisadiyyatımız, pulumuz yox idi, - onun dəmir iradəsi, xalqın ona olan sevgisi, rəğbəti Azərbaycanı, bax, bu müstəqillik yoluna çıxarıbdır. Biz də bu müstəqil yol ilə gedirik və gedəcəyik.***

Sonra çıxışlar olub.

YAP-ın sədr müavini-icra katibi, Baş nazirin müavini Əli Əhmədov 2018-ci il aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində partiyanın sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi barədə qurultayın qərarını təqdim edib.

Qərar yekdilliklə qəbul olunub.

YAP-ın sədri, dövlətimizin başçısı İlham Əliyev ona göstərilən dəstəyə görə minnətdarlığını bildirib.

Yeni Azərbaycan Partiyasının VI qurultayı dövlət himninin səslənməsi ilə başa çatıb.

# FUTBOL ÜZRƏ DÜNYA ÇEMPİONATININ KUBOKUNUN ƏSLİ PREZİDENT İLHAM ƏLİYEVƏ TƏQDİM EDİLİB

Futbol üzrə dünya çempionatı ərəfəsində dünya turnesi çərçivəsində çempionatın Kubokunun əsli FİFA-Coca-Cola və AFFA tərəfindən Azərbaycana gətirilib.

Fevralın 9-da kubok Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub. Kubok futbol üzrə dünya çempionatı Kubokunun sahibi, Fransa yığma komandasının keçmiş oyunçusu, dünya futbol əfsanələrindən sayılan Kristian Karambo tərəfindən təqdim edilib.

Görüşdə çıxış edən Kristian Karambo deyib: “Azərbaycanda olmaq mənim üçün həqiqətən də şərəfdir. Sizin gözəl şəhəriniz var. Sizin həmişə idmana dəstək verdiyinizi bilirəm və buna görə Sizə minnətdarıq. Bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür edirik. Cənab Prezident, bu Kubok Sizə təqdim olunur, siz buna layiqsiniz”.

Əfsanəvi futbolçu Kristian Karambo dünya çempionatının Kubokunun əslini Prezident İlham Əliyevə təqdim edib.

Azərbaycan Prezidenti İlham Əliyev deyib:

-Çox sağ olun. Mən FİFA-ya, şəxsən sizə, sizin həmkarlarınıza bu tarixi Kuboku Azərbaycan xalqına, azərbaycanlı azarkeşlərə təqdim etmək məqsədilə Bakıya gəlişiniz üçün minnətdaram. Biz Azərbaycanın və Bakının turnenin keçirildiyi ölkə və şəhərlərdən biri kimi seçilməsindən qürur duyuruq. Bu, bizim üçün həqiqətən də böyük şərəfdir. Bu gün bu, böyük bir hadisə olacaq və mən əminəm ki, azarkeşlər bu Kuboka baxmaqdan çox məmnun olacaqlar. Mən sizin icazənizlə bu kuboka toxundum. Mən bilirəm ki, Kuboka yalnız çempionlar və dövlət başçıları toxuna bilərlər. Əminəm ki, tariximizdə ilk dəfə qeyd etdiyimiz bu əlamətdar hadisə futbolumuzda, oyunçularımızda daha da böyük həvəs oyadacaq, dünyada bu ən məşhur idman növünün Azərbaycanda inkişafına kömək edəcək. Biz futbolun, idmanın inkişafına kömək etməyə çalışırıq. Azərbaycanın idman sahəsində yaxşı nəticələri var. Keçmiş Rio Olimpiya Oyunlarında Azərbaycan yığması ümumi medal sayına görə dünyada 14-cü yeri tutmuşdur. Biz iki mötəbər beynəlxalq idman yarışına - Avropa Oyunlarına və İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişik və bu oyunlarda komandamız medal sayına görə müvafiq olaraq, ikinci və birinci yerləri tutmuşdur. Biz Bakıda futbol üzrə Avroliqanın finalına və futbol üzrə Avropa çempionatının dörddəbir finalına və bir neçə qrup oyunlarına ev sahibliyi etməyi səbirsizliklə gözləyirik. Biz artıq mötəbər beynəlxalq, Avropa idman və futbol yarışlarına ev sahibliyi edəcək dünya ölkələrinin birinə çevrilirik...

Sonra FİFA prezidenti Canni İnfantinonun ənənəsinə uyğun olaraq, FİFA-nın rəsmi nümayəndəsi xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim edib.

Sonda xatirə şəkilləri çəkdirilib.

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 8-də Fransanın “Thales İnternational” şirkətinin birinci vitse-prezidenti Rafael Eskinazini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı fevralın 8-də İran İslam Respublikasının milli bayramı - İslam İnqilabının Qələbəsi Günü münasibətilə Prezident zati-aliləri cənab Həsən Ruhaniyə təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri fevralın 9-da Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə İlqar Namaz oğlu Abbasovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 9-da Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Fevralın 9-da Azərbaycan Prezidenti İlham Əliyev əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri fevralın 10-da Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Fevralın 12-də Azərbaycan Prezidenti İlham Əliyev Mayıl Seminar oğlu Şahverdiyevə general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı Azərbaycan dövlətçiliyinə sadiqlik göstərərək vəzifə borcunu ləyaqətlə və yüksək peşəkarlıqla yerinə yetirdiyinə görə Arzu Yusif oğlu Rəhimovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Fevralın 12-də ölkəmizin rəhbəri Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bir qrup hərbi qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev Moskva ətrafında baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş təyyarə qəzası ilə əlaqədar Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə başsağlığı teleqramı göndərib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 13-də Formula-1 Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı fevralın 13-də Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxelenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Fevralın 13-də ölkəmizin başçısı əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

# BUDUR, AZƏRBAYCAN YOLU: İNKİŞAF, TƏRƏQQİ, YÜKSƏLİŞ

...Paytaxt Bakı müasirlik və estetik gözəlliyinə görə dünyanın ən məşhur şəhərləri sırasında olduğu kimi, rayonlarımız da öz quruculuq standartlarına görə üstün mövqelərə çatır. Paytaxt və bölgələrdə turizmin inkişafı, aparılan quruculuq işləri nəticəsində ölkəmiz əcnəbilər üçün daha da cəlbedici olur. Tam təhlükəsizlik şəraitində, əmin-amanlıq içində Azərbaycanın istənilən guşəsinə üz tutanlar özlərini rahat hiss etməklə, ölkəmizin qədim tarixini əks etdirən məkanlardan, yeni yaradılan infrastrukturdan məmnun qalır, vətənlərinə döndükdən sonra belə burada gördüklərini, sevdiklərini təbliğ edirlər...

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə “Xocalı soyqırımının iyirmi altıncı ildönümünün keçirilməsinə dair tədbirlər planı” təsdiq edilib.**

*Bax səh.2.*

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2018-ci il fevral ayının 24-də saat 10:00-da Şirvan Şəhər Polis Şöbəsində Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

**Bura əvvəllər də bir neçə dəfə gəldiyimdən yol üçün azı 1 saat ayırmışdım. Lakin heç 20-25 dəqiqə keçmədi ki, artıq mənzil başındaydım. Bu il may ayının 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə Pirallahı adasını Abşeron yarımadası ilə birləşdirən müasir körpünün və yeni çəkilmiş yolun açılışı olmuşdur. Və mən elə bunun üçün tez, çox da rahatlıqla Pirallahıya çatdım.**



Məqsədim Rayon Polis Şöbəsinin şəxsi heyəti tərəfindən 2017-ci il ərzində cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində görülən işlərə dair əməliyyat müşavirəsində iştirak etmək idi.

Beləliklə, iştirak etdiyim müşavirəni rəis, polis polkovnik-leytenantı Cümşüd İsmayılov

# İLƏ YEKUN VURULDU

açaraq hesabat məruzəsilə çıxış etmək üçün sözü rəis müavini, polis polkovnik-leytenantı Elman Kazımova verdi. Məruzəçi bildirdi ki, hesabat dövründə Pirallahı rayonu ərazisində Daxili İşlər Nazirliyi və Pro- kurorluq üzrə 78 cinayət baş verib, onlardan 75-nin açılması təmin olunub, məhkəməyədək tamamlanmış işlər üzrə açılma 92,6 faizdir. Qeyri-aşkar şəraitdə baş vermiş cinayətlərin açılması 83,9, ağır və xüsusilə ağır cinayətlərin açılması 21,8 faiz yaxşılaşaraq 81,8, mülkiyyət əleyhinə olanların isə açılması 92,6 faiz təşkil edib. Axtarışda olan 5 təqsirləndirilən şəxs tutulub, itkin düşənlərin hamısı tapılıb.

Beşi satış olmaqla narkotik vasitələrlə bağlı 9 fakt aşkarlanıb. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 8 kiloqramdan çox narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

Qeyd olunub ki, ötən dövrdə RPŞ əməkdaşları tərəfindən qanunsuz saxlanılan silah və döyüş sursatının yığılması istiqamətində tədbirlər davam etdirilərək 1 ədəd «Kalaşnikov» avtomatı, 1 ədəd qumbara, 1 tapança, güllə darağı və xeyli miqdarda müxtəlif kalibrli patronlar əməliyyat yolu ilə aşkarlanıb.

Cinayətlərin 19-u bu rayon ərazisində yaşayan polis veteranlarının köməyi ilə açılıb. Pirallahı qəsəbəsi, Çilov adası və Neft daşlarında yerləşən 4 polis sahə məntəqəsi əsaslı təmir olunaraq müvafiq avadanlıqlarla təmin edilib.

Hesabat dövründə vətəndaşların qəbulu işi də diqqət mərkəzində saxlanılıb.

Əməliyyat müşavirəsinə yekun vuran polis polkovnik-leytenantı Cümşüd İsmayılov dedi ki, ictimai təhlükəsizliyin etibarlı qorunması, cinayətkarlığa qarşı mübarizədə bundan sonra da əzmkarlıq göstəriləcək, hesabat dövründə yol verilən nöqsanlar qısa müddətdə aradan qaldırılacaq.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

**Müdriklərlərdən biri deyib ki, insan həyatının 50 ili mətn, geri qalanı isə şərhdən ibarətdir. Hər kəs mətni özü yazır, üzərində qaralamalar edir, düzəlişlər aparır.**

**Əksər insanların həyatına ya özləri, ya da yaxın dost-tanışlar şərh verir. Sayılı insanlar olur ki, həyatını etdiyi əməllərə, göstərdiyi xidmətlərə görə təkcə ailəsi və dost-tanışları deyil, onu tanıyan hər kəs şərh edir…**



Oğuz Rayon Polis Şöbəsi Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Xalid Babayevin DİO-da xidmətinin xeyli hissəsi sovet dönəminə düşüb. Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsini bitirdikdən sonra ilk iş yeri məhkəmədə olsa da, sonralar taleyini daxili işlər orqanlarına bağlayıb. Burada ilk işi Oğuz

# ÖMÜR YOLUNU BELƏ XATIRLAYIR

Rayon DİŞ-də sahə inspektoru olub.

1983-cü ildə Ağcabədi Rayon DİŞ-nin rəisi vəzifəsinədək yüksəlib. Sonralar Mingəçevirdə və Xanlar (indiki Göygöl) rayonlarında cinayətkarlıqla mübarizə aparıb, 1991-ci ildə "milis polkovniki" xüsusi rütbəsinə layiq görülüb.

Xidməti fəaliyyəti dəfələrlə yüksək qiymətləndirilən hörmətli veteranımız keçdiyi həyat yolundan, taleyindən razıdır. Azərbaycan Respublikası Prezidenti tərəfindən layiq görüldüyü "Tərəqqi" medalının onun xidməti fəaliyyəti dövründə ən yüksək mükafat olduğunu xüsusi qeyd edir.

Ömür yolunu belə xatırlayır : "Hərc-mərcliyin hökm sürdüyü illər yaxşı yadımdadır. Əhali çaş-baş qalmışdı. Cox çətin bir dönəm di. Bizim işimiz də təbii ki, həmin vaxtlarda daha ağır idi. Bir tərəfdən paytaxt Bakıda və regionlarda qarışıqlıq, xüsusi silahlı qruplaşmaların meydana çıxması, bir tərəfdən də bədnam qonşularımızın əməlləri. Məhz ulu öndər hakimiyyətə qayıtdıqdan sonra bütün özbaşınalıqlara son qoyuldu. Ümummilli liderin müdrikliyi və uzaqgörən siyasəti nəticəsində ictimai sabitlik bərpa olundu, bütün sahələrdə problemlər öz həllini tapdı. İndi müstəqil, demokratik dövlətin vətəndaşı olaraq, hər kəs çalışmalıdır ki, öz işinə daha məsuliyyətlə yanaşsın. Bu gün işləmək, qurub-yaratmaq üçün hər cür şərait yaradılıb. Əsas odur ki, ləyaqətli vətəndaş olub, ləyaqətlə yaşaya biləsən".

Bu gün də öz bilik və bacarığını gənc əməkdaşlardan əsirgəmir. Üstəlik, veteranlarımızın təcrübəsindən yararlanaraq, coxlu sayda cinayət işinin açılması təmin olunur.

Oğuz Veteranlar Şurasının üzvlərinin iştirakı ilə maarifləndirici tədbirlərin keçirilməsi öz faydasını verir. İctimaiyyət arasında, əhali, gənclər və yeniyetmələrlə keçirilən görüşlər maraqla qarşılanır, səmərə verir. Xalid Babayevin fikrincə, ölkə və DİN rəhbərliyinin diqqət və qayğısı əməkdaşlarımıza, o cümlədən gənclərə daha yaxşı işləmək və özünü müsbət tərəfdən göstərmək imkanı verir. Ona görə gənc əməkdaşlar indi daha səylə çalışmalı, öz üzərlərində işləməli, dünyagörüşlərinin və peşəkarlıqlarının artırılması qeydinə qalmalı, bu yolda ağsaqqal həmkarlarının təcrübəsindən yaralanmalıdırlar.

Ömrünün 80-ci baharının astanasında olan Xalid Babayevə ancaq cansağlığı, dəyərli veteranlıq fəaliyyətində beləcə, gözəl nəticələr arzulayırıq.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "Xocalı soyqırımının iyirmi altıncı ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib.**

Tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, ictimaiyyət nümayəndələri tərəfindən Şəhidlər xiyabanının ziyarət edilməsi, Azərbaycanın xarici ölkələrdəki səfirliklərində, nümayəndəliklərində, konsulluqlarında və diaspor təşkilatlarında soyqırımı ilə bağlı tədbirlərin (mətbuat konfranslarının, anım mərasimlərinin və s.) təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında qanlı qırğını əks etdirən materialların yayılması və internet şəbəkəsində




# XOCALI SOYQIRIMININ 26-cı İLDÖNÜMÜNÜN KEÇİRİLMƏSİNƏ DAİR TƏDBİRLƏR PLANI TƏSDİQ EDİLİB

mütəmadi olaraq yenilənməsi nəzərdə tutulub.

Bundan başqa, ölkəmizdə fəaliyyət göstərən dini konfessiya və qurumlar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım mərasimləri təşkil ediləcək, idarə və təşkilatlarda, təhsil və mədəniyyət müəssisələrində xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə həsr olunan sənədli və bədii filmlər göstəriləcək.

Xocalılıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, Milli Məclisin deputatlarının və ziyalıların şəhid ailələri ilə görüşləri təşkil olunacaq.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq, həmin gün saat 17:00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, Xocalı soyqırımı günü ilə əlaqədar respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endiriləcək.

# GƏNCLƏR SİYASƏTİ DİO-da UĞURLA DAVAM ETDİRİLİR

**Əvvəli ötən sayımızda.**

Dövlət gənclər siyasəti daxili işlər orqanlarında da layiqincə yerinə yetirilir. Kadrların hazırlıq səviyyəsinin artırılması, gənc əməkdaşlara lazımi diqqət və qayğı göstərilməsi, onların bacarığına, peşəkarlığına, dövlətçiliyə sədaqətlərinə görə irəli çəkilmələri DİN rəhbərliyinin fəaliyyətində ən ümdə istiqamətlərdən və daim nəzarətdə saxlanılan məsələlərdəndir.

Bunun nəticəsidir ki, son illər yüzlərlə belə gənc əməkdaş şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında daxili işlər orqanlarında xidmətə qəbul olunub, dövlətə və xalqa sədaqətlə xidmət edir.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov daxili işlər orqanlarında xidmətə qəbul olunan gənclərlə görüşlərində bu istiqamətdə ulu öndərin və möhtərəm dövlət başçımızın müdrik tövsiyələrinin və göstərişlərinin layiqincə yerinə yetirildiyini, gənclərə dövlət qayğısının davamlılığını xüsusi qeyd edir, onlara bilik və bacarıqlarını, təcrübələrini daim artırmalarını, ekstremal hallarda müstəqil qərar qəbul edə bilmələrini, müasir dövrün tələblərinə və çağırışlarına cavab vermələrini, daim öz üzərlərində işləmələrini, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini və praktikada fəal şəkildə tətbiq etmələrini, insan və vətəndaş hüquq və azadlıqlarına, onların şərəf və ləyaqətinə hörmətlə, həmçinin vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını tövsiyə edir.

Hazırda DİN-də xidmətin daha müasir tələblər səviyyəsində qurulması üçün yeni xidmət sahələri yaradılıb. Burada geniş tətbiq olunan informasiya kommunikasiya texnologiyaları ilə işləyən gənclər asayişin, təhlükəsizliyin təminində yüksək nəticələr əldə edirlər.

Gənc əməkdaşlarımız həm də beynəlxalq miqyaslı yarışlarda, Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında dəfələrlə fərqlənib, ölkəmizin idman şərəfini layiqincə qoruyublar.

Gənc əməkdaşların elmi-praktiki fəaliyyətdə uğurlar qazanmasına da daim lazımi diqqət yetirilir. Onların hüquqi biliklərinin artırılması, daha peşəkar və hazırlıqlı əməkdaş kimi formalaşmaları üçün DİN-in Polis Akademiyasında güclü elmi baza yaradılıb.

Gənc əməkdaşlar onlara olan inama, göstərilən diqqət və qayğıya cavab olaraq asayişin, sabitliyin qorunması üçün səy və bacarıqlarını əsirgəmədən çalışır, uğur və nailiyyətlərini daha da artırır, istər xidmət, istərsə də texnologiyalar, elmi-nəzəri, praktik sahədə əldə etdikləri göstəricilərlə dəyərli töhfələr verir, bir sözlə, etimadı layiqincə doğruldurlar.

*C.Natiq*
*H.Zeyni*

**Bu gün respublikamızın dünyanın nüfuzlu ölkələri səviyyəsinə yüksəlməsi, Avrasiyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi ilə yanaşı, ölkə miqyasında çoxşaxəli inkişaf, quruculuq prosesinin aparılması ilə əlamətdardır. Paytaxt Bakı müasirlik və estetik gözəlliyinə görə dünyanın ən məşhur şəhərləri sırasında olduğu kimi, rayonlarımız da öz quruculuq standartlarına görə üstün mövqelərə çatır. Paytaxt və bölgələrdə turizmin inkişafı, aparılan quruculuq işləri nəticəsində ölkəmiz əcnəbilər üçün daha da cəlbedici olur. Tam təhlükəsizlik şəraitində, əmin-amanlıq içində Azərbaycanın istənilən guşəsinə üz tutanlar özlərini rahat hiss etməklə, ölkəmizin qədim tarixini əks etdirən məkanlardan, yeni yaradılan infrastrukturdan məmnun qalır, vətənlərinə döndükdən sonra belə burada gördüklərini, sevdiklərini təbliğ edirlər.**

# BUDUR, AZƏRBAYCAN YOLU: İNKİŞAF, TƏRƏQQİ, YÜKSƏLİŞ

Cənab Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, ölkəmizdə sabitlik, sülh və təhlükəsizlik olmasa, heç bir iqtisadi inkişaf olmayacaq. Yeni Azərbaycan Partiyasının VI qurultayında möhtərəm dövlət rəhbərimiz deyib: "Ölkəmizdə bütün azadlıqlar təmin edilir və edilməlidir, bu da bizim siyasətimizdir. Gələcək illərdə də demokratik inkişafla bağlı yeni addımlar atılacaqdır, siyasi islahatlar davam etdiriləcəkdir. Son illər ərzində bu istiqamətdə gözəl nəticələr əldə edilib və bu, daimi prosesdir. Biz çalışmalıyıq ki, dünyanın demokratik baxımdan ən inkişaf etmiş ölkələrinin standartlarına yaxınlaşaq və bunu edəcəyik... Mən tam əminəm ki, əgər biz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirmək istəyiriksə, - biz bunu istəyirik, - mütləq siyasi və iqtisadi islahatlar paralel xətlə davam etdirilməlidir.

Azərbaycanda vicdan azadlığı tam təmin edilir və ediləcəkdir. Bundan sonra da Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkə kimi uğurla inkişaf edəcək. Bundan sonra da ölkəmizdə bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayacaq. Bu, bizim böyük sərvətimizdir..."

Bu ilin yanvar ayında ölkəmizin valyuta ehtiyatları 2 milyard dollar artıb və bu gün o 44 milyard dollar səviyyəsinə qalxıb.

Ölkə başçımızın həyata keçirdiyi köklü islahatlar iqtisadiyyatımızın şah damarı olan neft-qaz sektorunun özünün də inkişafına təkan verir. Nəticədə bu sahəyə yeni sərmayələr yatırılır, beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq möhkəmlənir. Bütün bu reallıqlar həm Azərbaycan dövlətinə və xalqına xidmət edir, həm qonşu dövlətlərin maraqlarını təmin edir, həm də beynəlxalq əməkdaşlığın coğrafiyasını genişləndirir.

"Əsrin müqaviləsi" imzalanandan bəri Azərbaycan bir sıra önəmli layihələr həyata keçirib. Bakıdan 55 kilometr cənubda, yarımsəhra zonada dünyanın ən böyük neft-qaz terminallarından biri olan Səngəçal terminalı inşa edilib. Bakıdan Novorossiyskə qədər uzanan Şimal İxrac Boru Kəməri, Azərbaycanın və Gürcüstanın ərazisindən keçərək Qara dəniz sahilindəki Supsa limanına çatan Qərb İxrac Boru Kəməri çəkilib.

Əlamətdar hadisələrdən biri də bu yaxınlarda Astara (Azərbaycan)-Astara (İran) dəmir yolu marşrutu ilə Rusiya Federasiyasından gələn 6 vaqondan ibarət ilk sınaq yük qatarının İrana yola salınmasıdır.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən, Qəzvin-Rəşt dəmir yolunun davamı olan bu dəmir yolu xətti İran ilə Rusiyanın dəmir yolları sistemlərini Azərbaycan vasitəsilə birləşdirəcək.

Bu, həmçinin yenicə açılışını etdiyimiz Bakı-Tbilisi-Qars dəmir yolu dünyaya açılan qapılarımızdır.

***Azərbaycan dünyaya açılır, dünya Azərbaycanı Şərqlə-Qərbin düz ortasında yeni bir sabitlik adasını, Odlar və işıqlar ölkəsini kəşf edir.***

*Z.Hüseynov*

# VƏTƏNDAŞ ÜÇÜN...

**Fevralın 7-də qorunan obyektdən oğurluğa cəhdin qarşısının alınması ilə bağlı daha ətraflı məlumat əldə etmək üçün BMİ-nin Sabunçu Rayon Mühafizə İdarəsinə yollandıq. Bildirdilər ki, bu gün həm xidməti peşə hazırlığı dərsidir, həm də baş vermiş hadisənin təhlili ilə bağlı rəisyanı əməliyyat müşavirəsidir. Müşavirədə bizim də iştirakımız təmin olundu.**

İdarə rəisi, polis polkovniki Əşrəf Allahyarov bildirdi ki, qorunan və ya qorunmayan obyektlərdən oğurluq cəhdlərinin qarşısının alınması və daha etibarlı mühafizə əməkdaşların qarşısında tələb kimi qoyulub, həm də bu onların xidməti borcudur. Bu gün RMİ-nin şəxsi heyəti ötən ilki uğurlarla kifayətlənmir, günün, zamanın tələbi olan texnoloji yeniliklərdən yararlanır, məsuliyyətini daha yaxşı dərk edir. Elə ayın 7-də oğurluğa cəhdin qarşısının alınması da əməkdaşların özünə tələbkarlığının, sözün əsl mənasında, peşəkarlığının göstəricisidir.



Polis polkovniki Ə. Allahyarov xidmətdə fərqlənən əməkdaşların baş idarə rəhbərliyi tərəfindən dəfələrlə mükafatlandırıldığını da diqqətə çatdırdı. Dedi ki, təcrübəli əməkdaşlar öz biliklərini təkcə xidmətdə deyil, həmçinin peşə hazırlığı dərslərində də gənclərə öyrədirlər.

Yeri gəlmişkən, xidməti peşə hazırlığı dərsində də iştirak etdik. Dərs rəhbəri, kadr və peşə hazırlığı üzrə baş inspektor, polis baş leytenantı Anar İbadov şəxsi heyətin hər həftənin 4-cü günü dərslərdə mütəmadı iştirakını, mövzuların plana uyğun keçirildiyini bildirdi.

Növbədən sonra, yəni xidmətdən çıxsalar da günümüzün qəhrəmanları-**polis serjantları Mehman İbrahimovla və Urfat İsayevlə** görüşdük. Hadisə ilə bağlı onları dinləmək daha maraqlıydı.



Polis serjantı Mehman İbrahimov: “Bakıxanov qəsəbəsində yerləşən xüsusi texniki vasitələrlə qorunan “NUR-Market”dən “həyəcan” siqnalı daxil oldu. Bir dəqiqə ərzində hadisə yerinə çatdıq. Obyektə baxış zamanı mağazanın qapısının sındırıldığını və oğurluğa cəhd olunduğunu müəyyən etdik. Onlar dörd nəfər idilər. Bizi görüb ikisi qaçmağa başladı. Obyektə daxil olmuş şəxsləri mən, qaçan iki nəfəri də həmkarım yaxalayıb, rəhbərliyə hadisə ilə bağlı məlumat verdik.



Qeyd edək ki, polis serjantı Mehman İbrahimov 7, Urfat İsayev isə 4 ildir ki, daxili işlər orqanlarında xidmət edir.

Cinayəti törətməkdə şübhəli bilinən, aralarında qız da olan 4 nəfərdən ibarət dəstə mühafizə polisi əməkdaşlarının çevikliyi sayəsində saxlanılaraq 13-cü Polis Bölməsinə təhvil veriliblər. Şəxsiyyətləri dəqiqləşdirilən zaman onların yetkinlik yaşına çatmadığı müəyyən edilib. Məlum olub ki, Sabunçuda, eləcə də Yasamal, Nərimanov və Binəqədi rayonlarında silsilə oğurluq törədiblər. Və fevralın 9-da gecə saatlarında Bakıxanov qəsəbəsindəki "Şirniyyat ev"ində daha bir oğurluğa cəhdin qarşısı Sabunçu RMİ əməkdaşları tərəfindən alınıb. Cinayəti törətməkdə şübhəli bilinən şəxslərin üzərlərinə baxış zamanı qeyd edilən obyektdən oğurladıqları bir ədəd planşet və mobil telefon aşkar olunaraq maddi sübut kimi götürülüb. Bölmədə şəxsiyyətləri dəqiqləşdirilən zaman məlum olub ki, yetkinlik yaşına çatmayan bu şəxslər tutulana qədər elə həmin gecə Sabunçu və Nizami rayonlarında ümumilikdə 5 mağaza və daha bir şirniyyat evindən oğurluq ediblər...

*Hafiz Təmirov,*
*polis mayoru*

# XATIRLANDI...



**Azərbaycanın Milli Qəhrəmanı Qorxmaz Eyvazovun şəhid olmasından 24 il ötür.**

Fevralın 10-da qəhrəman polisimizin xatirəsi Laçın Rayon Polis Şöbəsində keçirilən anım mərasimində yad edilib. Mərasimdə polis əməkdaşları, Rayon İcra Hakimiyyətinin nümayəndələri, qəhrəmanın döyüş yoldaşları və oğlu iştirak edib.

Tədbirdə çıxış edənlər Q.Eyvazov haqqında xatirələrini danışıb, belə tədbirlərin gənclərin vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyətini qeyd ediblər.

*A.Qiyaslı,*
*polis leytenantı*

# YARIŞ BİTDİ,
## HAZIRLIQLAR DAVAM EDİR

**Bu yaxınlarda keçirilən boks üzrə Azərbaycan çempionatında DİN-in Komendant Xidmətinin əməkdaşı, polis serjantı Eldar Quliyev ikinci dəfə respublika çempionu tituluna sahib olub. Boks Mərkəzində gerçəkləşən yarışda çəkisi 81 kiloqramadək olan idmançılar arasında bütün rəqiblərinə qalib gələn idman ustası E.Quliyev daha böyük qələbələr qazanmaq iddiasında olduğunu bir daha təsdiq edib.**



Qələbə sevincinə biz də şərik olduq, təbriklərimizi çatdırdıq. Oxucularla onu daha yaxından tanış etmək üçün verdiyimiz sualları da canla-başla cavablandırdı. Bildirdi ki, 1992-ci ildə Naxçıvanın Kəngərli rayonunun Şahtaxtlı kəndində dünyaya göz açıb. On dörd yaşında böyük idmana gedən yolda ilk qələbəsini qazanıb. Naxçıvan Muxtar Respublikasında keçirilən yeniyetmələr arasında birincilikdə bütün rəqiblərini məğlub edərək baş mükafata sahib olub.

Daha sonra Rusiya, Türkiyə, Qazaxıstan, Ukrayna və digər ölkələrdə qatıldığı beynəlxalq turnirlərdə qələbə sevincini təkrar-təkrar yaşayıb.

Polis serjantı E.Quliyev sonuncu qalib olduğu yarış haqqında danışarkən qarşılaşmaların çox çətin olduğunu bildirdi: “Sevindiricidir ki, ümumilikdə ölkə idmanının səviyyəsi çox artıb. Bütün idmançılarımız dünyanın ən güclü boksçuları ilə qarşılaşmaq bacarığına malikdirlər. Ona görə də respublika çempionatında finala çıxan idmançı artıq, belə deyək, rahat nəfəs ala bilər ki, beynəlxalq miqyaslı yarışlarda üstünlük qazanmaq şansı var.”

İdmançımız fevralın 18-26-da Bolqarıstanın paytaxtı Sofiyada keçiriləcək “Strandja” turnirinə vəsiqə qazandığını vurğuladı.

Qarşıdakı yarışlardan danışan E.Quliyev 2020-ci ildə Tokioda keçiriləcək Olimpiya oyunlarında iştirak etmək üçün daha çox məşq etdiyini bildirdi.

Sonda idmançımız yaradılan şəraitə və göstərilən qayğıya görə DİN rəhbərliyinə təşəkkürünü bildirdi.

*Zeyni Hüseynov,*
*polis serjantı*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS ORQANLARINDA VAKANT OLAN ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR
# MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında (Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla) polis sahə rəisi, əməliyyat müvəkkili və yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili üzrə inspektor vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 100 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanlarından və müsahibədən ibarətdir. Test imtahanları – Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar üzrə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, müsahibə – test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçılarla Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas və müəllim (pedaqoq) ixtisası üzrə təhsil almış, yaşı 28-dən yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), özü və yaxın qohumları məhkum olunmamış, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları (daxili işlər orqanlarında xidmətə bərpa olunan və yaxud yenidən qəbul edilən orta və böyük rəis heyəti vəzifələrində işləmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Hacıqabul (1), Xaçmaz (1), Xızı (1), Qubadlı (1), Qusar (1), Saatlı (1), Sabirabad (1), Yardımlı (1) və Şirvan (1) şəhər, rayon polis şöbələrində vakant yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili üzrə inspektor vəzifəsi üçün müsabiqədə yalnız göstərilmiş rayonlarda yaşayış yeri üzrə qeydiyyatda olan və azı 3 il pedaqoji staja malik şəxslər iştirak edə bilərlər.

Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda (Naxçıvan Muxtar Respublikası istisna olmaqla), qeydiyyatda olan yalnız subay namizədlər respublikanın rayonlarında yaşayış şəraitləri nəzərə alınmaqla müsabiqəyə buraxılacaqlar.

Müsabiqə qaliblərinin təyinatı zamanı ilk növbədə həmin rayonda yaşayış şəraiti olanlara üstünlük veriləcək və təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.

Müsabiqədə iştirak etmək istəyənlər **http://www.mia.gov.az/index.php?/az/content/29799/ ünvanda yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.**

Elektron ərizənin Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsində qeydiyyata götürülməsi barədə elektron poçt vasitəsi ilə müvafiq məlumat aldıqdan sonra namizədlər yaşadıqları ərazi polis orqan- larına aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi;
- ali təhsil haqqında diplom;
- hərbi bilet (kişilər üçün);
- əmək kitabçası (olanlar üçün);

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları», test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər **Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında** yerləşdirilmişdir.

Müsabiqədə iştirak etmək üçün sənədlər 2018-ci il yanvar ayının 22-dən fevral ayının 21-dək hər gün (istirahət günləri istisna olmaqla) saat 10-dan 17-dək şəhər, rayon polis orqanlarında qəbul olunur.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**

(012) 590-92-37; (012)-590-92-54. (012) 590-93-27;

(012) 590-93-45; 012) 590-93-64; (012) 590-95-23.

*DİN-in Baş Kadrlar İdarəsi*

# DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN
## TEST İMTAHANININ PROQRAMI

**(Hüquqşünaslar üçün)**

Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

**Qanunvericilik aktları və nəzəri bilik sahələri:**

-Azərbaycan Respublikasının Konstitusiyası.
-Dövlət və hüquq nəzəriyyəsi.
-Cinayət hüququ.
-Cinayət prosesi.
-İnzibati hüquq.
-Kriminalistikanın əsasları.
-Kriminalogiyanın əsasları.
-Mülki hüquq.
-BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi.
-«Polis haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu.
-«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu.

# DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN
## TEST İMTAHANININ PROQRAMI

**(Pedaqoji təhsillilər üçün)**

Daxili işlər orqanlarında yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili xidmətinə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

**Qanunvericilik aktları və nəzəri bilik sahələri:**

-Azərbaycan Respublikasının Konstitusiyası.
-Pedaqogikanın nəzəriyyəsi.
-Yaş psixologiyası.
-Sosial psixologiya.
-BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi.
-«Polis haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu.
-«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu.

# DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜÇÜN
## MİNİMAL FİZİKİ HAZIRLIQ NORMATİVLƏRİ

«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»nin tələblərinə müvafiq olaraq, daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslərin fiziki hazırlıq səviyyəsi müəyyən edilmiş aşagıdakı tapşırıqlar və normativlər əsasında yoxlanılır:

**Kişilər üçün**

**Qaçış: 100** (yüz) metrə – 15 saniyə, 1000 (min) metrə – 4 dəqiqə;

**Turnikdə dartınma** – 6 dəfə;

**Qolların üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi** – 18 dəfə;

**Arxası üstə uzanmış vəziyyətdə gövdənin döşəmədən qaldırılıb-endirilməsi**–18 dəfə.

**Qadınlar üçün**

**Qaçış: 100 (yüz) metrə** – 19 saniyə, **1000** (min) metrə – 5 dəqiqə 10 saniyə;

**Gimnastik hərəkətlər.**

# BU DƏFƏ DƏ VAXTINDA YETİŞDİLƏR

**Son vaxtlar belə xəbərlərin sayı çoxalıb desək, yanılmarıq. Bir tərəfdən bir insan, bir vətəndaş kimi hadisələrdən, mediada qabardılmasından məyusluq hissi keçiririk, digər tərəfdən fədakar polis əməkdaşlarımızın cəsurluğu, ekstreimal vəziyyətdə hadisələrə operativ reaksiyası, düzgün qərarlar verməsi bizi sevindirir. Beləliklə də bəzən bir yox, bir neçə ailənin, bir neçə taleyin fəlakətdən, faciədən xilasının şahidi oluruq. Bu son hadisə də bir daha sübut edir ki, polisimiz gecə-gündüz, istidə, şaxtada xidmətdə ayıq-sayıqdır, vətəndaşımızın həyatını etibarlı qoruyur.**




Məsələ isə belə olub. Xəzər Rayon Polis İdarəsinə «Mərdəkan körpüsü» deyilən yerdə bir nəfərin intihar etmək istəməsi barədə məlumat daxil olub. Dərhal idarədən yaxınlıqda xidmət aparan polis əməkdaşlarına məlumat ötürülür. **Post-Patrul Xidməti bölüyünün əməkdaşları-polis serjantları Elvin Ramazanov və Məhəbbət Gözəlov** efirdə məlumatı eşidən kimi tez özlərini hadisə yerinə çatdırıblar.

Təxminən 20-21 yaşlı gənc qadın körpünün dəmir barmaqlıqlarını da keçərək özünü aşağı atacağını qışqıraraq bəyan edirmiş. Bu vəziyyətdə gecikmək olmazdı. Hər keçən an acı sonluqla nəticələnə bilərdi.

Məhəbbət yavaş-yavaş ona yaxınlaşıb, xeyli müddət söhbət edib fikirindən yayındırmağa çalışıb. Elvinsə arxadan səssiz-səmirsiz, hündürlükdən çəkinmədən istinad barmaqlıqlarını keçərək qəfildən qızı tutub və bir göz qırpımında Məhəbbətlə birləşib onu ölümün pəncəsindən alıblar.

İndi polis həm də psixoloq olmalı, inandırmağı, cəmiyyətin ən müxtəlif təbəqələrini təmsil edən insanlarla düzgün, səmimi münasibət, ünsiyyət qurmağı bacarmalıdır. Bunun üçün isə polisin özü inanmalıdır – haqq işinə xidmət etdiyinə, seçdiyi peşənin xislətinə və ülviyyətinə…

*Çingiz Şıxverdiyev, polis polkovnik-leytenantı*

# ELAN

## DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ!

Azərbaycan Respublikası daxili işlər orqanları əməkdaşlarının mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Nərimanov rayonu, 2036-cı məhəllədə (Ziya Bünyadov prospektində, «Koroğlu» metrostansiyasının yaxınlığında) kooperativ yolu ilə tikilən 13 mərtəbəli yaşayış binasında ***ilkin ödəniş 50 faiz olmaqla, 1 il müddətinə 1 kvadratmetri heç bir faiz tutulmadan 900 manata 1, 2, 3, 4 otaqlı mənzillər təklif edilir.***



**Mənzillərin sahələri:**
1 otaqlı – 70.63, 72.93 kvm;
2 otaqlı – 88.17, 89.21 kvm;
3 otaqlı – 152.72 kvm;
4 otaqlı – 177.18 kvm.

Həmin binada mənzil almaq istəyən əməkdaşlar DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin Əsaslı Tikinti İdarəsinə **(tel: (012) 408-81-25)** müraciət edə bilərlər.

**Qeyd: Mənzillərin dəyəri tikintinin sonuna qədər hissə-hissə ödənilməlidir.**

# BU DA BİR SEVİNC PAYIDIR

**Vətəndaşlara yüksək səviyyədə xidmət göstərmək məqsədi ilə Daxili İşlər Nazirliyi müxtəlif tədbirlər həyata keçirir.**





Binəqədi RPİ-nin Qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbəsinin əməkdaşlarının bu dəfə Sulutəpə qəsəbəsinə gəlişinin səbəbi də elə bu məqsədə-bir tərəfdən vətəndaş məmnunluğunu təmin etmək, digər tərəfdən bu sənədin verilməsi və dəyişdirilməsi prosesini sürətləndirməyə xidmət edirdi.

Xocasən Bələdiyyəsinin inzibati binasında keçirilən tədbir zamanı ümumilikdə 53 nəfərin sənədləri qəbul edildi. Onların əksəriyyəti ilk dəfə şəxsiyyət vəsiqəsi alırdı. Müraciət edənlərin qan qrupunu müəyyən etmək üçün 15 nömrəli Poliklinikanın tibb işçiləri də gəlmişdilər.

Yeri gəlmişkən, yeni şəxsiyyət vəsiqəsi ilə təmin olunmaq üçün 2005-ci il təvəllüdlü Xocəsən sakini, fiziki qüsurlu Aydan Əliyevanın sənədlərinin onun yaşadığı mənzildə qəbul edilməsi diqqətçəkən məqamlardan idi.

Qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbəsinin əməkdaşları bildirdilər ki, yaxın günlərdə belə tədbirlər digər qəsəbələrdə də keçiriləcək.

*Hafiz Təmirov, polis mayoru*

# QƏLƏBƏLƏRİN ASTANASINDA

**Bu yaxınlarda Hövsan Olimpiya Kompleksində yeniyetmə və gənclər arasında sərbəst güləş üzrə Bakı birinciliyi keçirilib.**

Ölkəmizdə bu idman növünün populyarlığını nəzərə alsaq, yarışın nə qədər gərgin və maraqlı keçdiyini daha aydın təsəvvür etmiş olarıq.

Paytaxtın bütün idman klub və cəmiyyətlərinin təmsilçilərinin də qatıldığı yarışda DİN İdman Cəmiyyətinin yetirmələri də qələbə uğrunda mübarizə aparıblar.

İdman təlimi şöbəsinin rəisi, polis polkovnik-leytenantı İlyas Siracovun yetirməsi Şahin Muxtarov keçirdiyi bütün görüşləri qələbə ilə başa vurub. Çəkisi 57 kiloqramadək olan idmançılar arasında yarışan Ş.Muxtarov hazırda daha mötəbər yarışlara hazırlaşır.

*Z.Hüseynov*

# İLĞIM KİMİ...



**İlyas gün-güzəranını, maddi vəziyyətini yaxşılaşdırmaq üçün müxtəlif planlar qururdu. Amma bunun üçün «kapital» tapa bilmirdi. Nəyə əl atırdısa, zəhməti ağır, qazancı az görünürdü.**

Günlərin birində əvvəldən tanıdığı Rəşadla rastlaşanda onun «Nə işlə məşğul olursan?» sualına çiyinlərini çəkib: «Heç nə ilə» deməkdən başqa söz tapmadı. Söhbət etdikdən sonra Rəşad ona asan qazancın yolunu göstərdi. Fikir İlyasın ağlına batdı və təhlükəli olsa da bu işdə özünü sınamağa qərar verdi.

Şirvan şəhəri ərazisindəki yarımçıq tikililərdən birinin qarşısına gəlib ağzı yapışqanlı lentlə bağlanmış 2 ədəd polietilen torbanı götürüb sürətlə uzaqlaşdı.

Ürəyinin döyüntüsündən qulaqları batırdı. Qorxuyla sevinc bir-birinə qarışmışdı. Mənzil başına, əslində isə beş-on manat yığıb xaricə getmək arzusunun gerçəkləşməsinə bircə addım qalırdı.

Evinə çathaçatda ona yaxınlaşan iki nəfəri görüb sevindi. Elə zənn etdi ki, müştərilərdi, «mal» üçün gəliblər. Amma özlərini təqdim edəndə…

Gələnlər Şirvan ŞPŞ-nin Narkotiklərlə mübarizə qrupunun əməkdaşları idi. Onlarla birlikdə Şöbəyə getməli oldu. Əvvəlcə hal şahidlərinin iştirakı ilə üzərinə baxış keçirildi, sonra əlindəki polietilen torbaların içindəkini ekspertizaya təqdim etdilər.

Ekspertiza Şirvan şəhər sakini İlyas İlyasovdan götürülənin 2 kiloqram 50 qram marixuana olması barədə rəy verdi.

Saxlanılandan sonra hələ bir neçə il üzünə həsrət qalacağı doğmalarından başqa onu axtaran olmadı. Asan qazanc vəd edənlər çoxdan qaçıb aradan çıxmışdılar. Amma onlar da çox uzağa gedə bilməyəcəkdilər…

*Ruhiyyə Əliyeva, polis leytenantı*

Yaponiya hökuməti qrant müqaviləsi əsasında Gürcüstanın Daxili İşlər Nazirliyinə "Mitsubishi" markalı 45 hibrid və 51 elektrik avtomobil təqdim edib. Hibrid avtomobillər Tbilisi patrul polisinə, elektromobillər isə DİN-nin müxtəlif departamentlərinə paylanıb.

Daxili işlər naziri Giorgi Qaxariya deyib ki, Gürcüstan polisinin fəaliyyətini daha effektiv etmək üçün islahatlara başlanıb.

*****

***Nyu-York Polis Departamenti öz əməkdaşlarına yeni "İPhone 7" və "İPhone 7 Plus" smartfonları paylamağa başlayıb. Məlumata görə, bu smartfonların köməyi ilə polislər cinayətkarları axtaracaq.***

## DÜNYAYA PƏNCƏRƏ

***Artıq smartfonları Cənubi Manhetten Patrul Xidməti Departamentinin 36 min nəfər əməkdaşı əldə edib.***

***"Apple" cihazlarının verilməsi yeni texnikaya keçidlə bağlıdır və ötən ildən verilməsi nəzərdə tutulub.***

***Bu "İPhone"lar ştatın mülkiyyətidir və polisin şəxsi əşyası hesab edilmir. Cihazlar polisin iş alətidir. Smartfonlar vasitəsilə polislər həmkarları ilə danışa, istiqamətlərə baxa, qərargahdan gələn məlumatları oxuya biləcəklər. Həmçinin patrullar onlara lazım olduğu halda sosial şəbəkələri izləyə biləcəklər.***

*****

Çinin Xenan əyalətində polislər iş prosesində sifətin tanınması funksiyasına malik eynəkdən istifadəyə başlayıblar. Yeniliyin köməyi ilə artıq bir neçə qanun pozucusunu saxlamaq mümkün olub. Məlumata görə, eynək insan sifətini qeydə alır, bundan sonra informasiyanı axtarışda olanların siyahısı ilə müqayisə etmək üçün ümumi məlumat bazasına göndərir.

*****

***Finlandiyada işə salınacaq "Autoilija" pulsuz mobil əlavəsi plastik kart formasındakı sürücülük vəsiqəsini əvəz edəcək və o dünyada elektron sürücülük vəsiqələrinin ümumi istifadə üçün tətbiq ediləcəyi ilk ölkə olacaq. Vəsiqələr qanuna müvafiq dəyişiklik edildikdən sonra ənənəvi vəsiqələri əvəzləyəcək.***

*****

Ötən il Tacikistan Daxili İşlər Nazirliyinin 20 əməkdaşı artıq çəkiyə görə tutduğu vəzifədən kənarlaşdırılıb. Bunu ölkənin daxili işlər naziri Ramazon Rahimzoda bildirib. Nazir qeyd edib ki, əməkdaşlara özlərini formaya salmaq üçün vaxt verilib. Onlar yalnız bundan sonra işə bərpa oluna bilərlər.

Nazirin sözlərinə görə, daxili işlər orqanları əməkdaşları yaxşı fiziki formada olmağın vacibliyi barədə dəfələrlə xəbərdar ediliblər. Hətta dekabrda çəkisi normadan çox olanlara bir ay vaxt verilmişdi ki, artıq çəkini atsınlar.

Bundan əlavə, DİN bütün əməkdaşları üçün boy və çəkinin uyğunluğuna dair normativlər müəyyənləşdirib. Məsələn, boy 170 santimetrdirsə, çəki 75 kiloqramdan çox olmamalıdır.

*C.Natiq*

# Fevralın 7-dən 13-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 779 cinayət qeydə alınmış, onların 139-u «isti izlər»lə açılmışdır.
- Axtarışda olduğuna görə 138 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 17 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 8 nəfər ölmüş, 23 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 72 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 204 nəfər saxlanılmışdır.

Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirov və şəxsi heyəti Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Polis Akademiyasının rəisi Nazim Əliyev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oktay Kərimov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəqliyyatda Baş Polis İdarəsinin rəisi Emin Şəkinski və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əlahiddə Çevik Polis Alayının komandiri Zaur Abdullayev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Tibb İdarəsinin rəisi Mahmud Yusifov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİO Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondu icraçı direktoru Sadiq Gözəlov Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə ŞBPİ-nin rəisi Faiq Şabanov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin şəxsi heyəti baş idarə rəisi Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xəzər RPİ-nin rəisi Azər Muradov və şəxsi heyəti Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xətai RPİ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti Bərdə RPŞ-nin rəisi İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Goranboy RPŞ-nin rəisi Fəqan Azadəliyev və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdam RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Rauf Məcidov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.238
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00